# HEYDƏR ƏLİYEV VƏ KİTAB MƏDƏNİYYƏTİ

***Raziyə Nəbi qızı Əzməmmədova***

*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Rəyasət Heyəti aparatı,*
*Xüsusi şöbənin aparıcı mütəxəssisi*
*Səbail rayonu, İstiqlaliyyət küç.30*
*raziya18.08@mail.ru*

***Açar sözlər:*** *Ulu öndər, Azərbaycan xalqı, müstəqillik, folklor, epos*
***Ключевые слова:*** *Великий лидер, азербайджанский народ, независимость, фольклор, эпос*
***Keywords:*** *Great leader, Azerbaijani people, independence, folklore, epic*

**Xülasə:** Məqalədə Azərbaycan xalqının dahi şəxsiyyəti, Ulu öndər Heydər Əliyevin xalqımızın mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, kitaba və kitabxanaya yüksək dəyər verməsindən, kitab mədəniyyətinin inkişafı ilə əlaqədar Kitabxana işinin təşkilindən bəhs olunur.

**Резюме:** В статье говорится о великой личности азербайджанского народа, высоком отношении великого лидера Гейдара Алиева к культуре, национально-духовным ценностям, книгам и библиотекам нашего народа, об организации библиотечной работы, связанной с развитием книжной культуры.

**Summary:** The article discusses the great personality of the Azerbaijani people, the great leader Heydar Aliyev's high value on the culture, national and spiritual values, books and libraries of our people, and the organization of the Library's work in connection with the development of book culture.

Ümumimilli lider, dövlət xadimi, güclü siyasətçi, Ulu öndərimiz Heydər Əliyev Azərbaycan xalqının milli mənəvi dəyərlərinə və Azərbaycanın kitab mədəniyyətinin inkişafına həmişə böyük qayğı və diqqət göstərmişdir. Ulu öndər gənclərimizin zəngin biliklər əldə etməsi, dünya görüşlərinin inkişafı və xarici ölkələrdə Azərbaycan xalqını və mədəniyyətini layiqincə təmsil etməsi üçün böyük işlər görmüşdür. Heydər Əliyevin respublikamızda böyük təhsil kitabxanasının yaranmasında həlledici rolu olmuşdur. O, təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir göstərən dərs vəsaitləri, kitablar və kitabxanalarla təmin olunmasını vacib hesab edirdi. Ona görə də, 70-80-ci illərdə bütün orta təhsil müəssisələrində kitabxanalar yaradılmış, dərsliklər, dərs vəsaitləri və ədəbiyyatlarla zənginləşdirilmişdir. Həmin illər respublikamızda kitabxana işinin inkişafı, kitabxana işi sahələrində islahatlar dövrü olmuşdur. Bu illər ərzində kitabxana işlərinin mərkəzləşdirilməsi həyata keçirilmişdir. Sovet hakimiyyətinin hökm sürdüyü bu dövrdə kitabxana xidmətinin məzmumunda xalqımızın dilini, adət və ənənələrini, ədəbiyyatını, incəsənətini, vətənpərvərlik ideologiyasının təbliğini əhatə edirdi. Bütün bunlar Heydər Əliyevin tətbiq etdiyi siyasətin nəticəsi idi [1, səh 25-38].

Müstəqillik illərində Heydər Əliyev Azərbaycan dilinin və ədəbiyyatının inkişafı, yazıçı və şairlərin maddi vəziyyətinin yaxşılaşdırılması və onların əsərlərinin çap olunması və yayılması ilə bağlı tədbirlər həyata keçirmişdir. “Azərbaycan”, “Qobustan”, “Ulduz” və s. jurnalların və “Ədəbiyyat” qəzetinin nəşrinin dövlət hesabına həyata keçirilməsini, yazıçı və şairlərə fərdi təqaüdlərin təyin edilməsini göstəriş vermişdir [1, səh 72].

29 dekabr 1998-ci ildə Heydər Əliyev “Kitabxana işi haqqında” Qanun, 12 mart 1999-cu ildə isə “Kitabxana işi haqqında” Qanunun tətbiq edilməsi barədə” Fərman imzalamışdır. [1, səh 245-258]. Bu da onu göstərir ki, Ulu öndərimiz gənclərimizin maariflənməsi və özlərini inkişaf etdirmək üçün daha səmərəli vaxt keçirməsini vacib hesab etmişdir. Kitaba və kitabxanaya dəyər verən Ulu öndər demişdir: “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik,

zəka mənbəyidir.” “Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir.” Heydər Əliyev öz şəxsi kitabxanasından 300 nüsxədən çox kitab Milli Kitabxanaya kitab hədiyyə etmişdir. “Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün, yəqin ki, ona kitab bağışlayacaqlar” [3,səh 43-45].

Heydər Əliyev Azərbaycanın ədəbiyyat, folklor və etnoqrafiyası barədə dərin biliklərə sahib olması və bu sahələri daha çox diqqət mərkəzində saxlamaq üçün “Kitabi-Dədə Qorqud” eposunun 1300 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamış və bu barədə tədbirlər həyata keçirmişdir. Bu eposun xalqımıza və dünyaya yenidən tanıdılmasına və yeni nəsillərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük töhfələr vermişdir. Bütün türkdilli xalqların tarixi abidəsi hesab olunan “Kitabi-Dədə Qorqud” eposunun 1300 illiyini qeyd etmək Azərbaycan ədəbiyyatında türkdilli əsərlərin tarixinin VII əsrdən başlamasını göstərir. 1970-80-ci illərdə “Kitabi-Dədə Qorqud”, “Koroğlu” kimi eposlarımız, həmçinin nağıllarımız, əfsanə, rəvayət və lətifələrimiz, atalar sözü və məsəllərimiz dəfələrlə nəşr edilmişdir [2, səh 61-62].

**Ədəbiyyat**


1. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- Bakı: Azərnəşr, 2006. – 312 s.
2. Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti.- Bakı, 2023. – 324 s.
3. Heydər Əliyev ili və kitabxanalar.- Bakı, 2023. - 56 s.